**AZƏRBAYCAN RESPUBLİKASI SƏHİYYƏ NAZİRLİYİ**

**ƏMR**

**6 aprel 2023-cü il** **3-28/3-1-194/2023**

**ƏMR**

**“İmmunlaşdırma həftəsinin keçirilməsi barədə”**

Ümumdünya Səhiyyə Təşkilatının təşəbbüsü ilə 2006-cı ildən etibarən hər il Avropa regionunda “İmmunlaşdırma həftəsi” keçirilir və Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi də bu tədbirə qoşulur.

Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 25 may tarixli 413 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi haqqında Əsasnamə”nin 8.14-cü bəndini rəhbər tutaraq, respublikada 2023-cü ildə “İmmunlaşdırma həftəsi”nin keçirilməsi məqsədilə

**əmr edirəm:**

1. Ümumdünya Səhiyyə Təşkilatının tövsiyəsinə əsasən 2023-cü ilin 24–29 aprel tarixlərində respublikanın bütün şəhər və rayonlarında “İmmunlaşdırma həftəsi” keçirilsin.

2. Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin tibb idarə və müəssisələrinin rəhbərlərinə tapşırılsın, digər tibb idarə və müəssisələrin rəhbərlərinə tövsiyə edilsin:

2.1. hər hansı səbəblərə görə immunlaşdırmadan kənarda qalan uşaqların siyahısı hazırlansın və “İmmunlaşdırma həftəsi” ərzində onların immunlaşdırmaya cəlb edilməsi təmin edilsin;

2.2. immunlaşdırma tədbirləri barədə əhali arasında maarifləndirmə işinin aparılması təmin edilsin;

2.3. “İmmunlaşdırma həftəsi”nin nəticələri haqqında məlumat 22 may 2023-cü il tarixinədək Respublika Gigiyena və Epidemiologiya Mərkəzinə təqdim edilsin.

3. Respublikanın şəhər və rayon gigiyena və epidemiologiya mərkəzlərinin direktorlarına tapşırılsın ki, uşaqların vaksinasiyasını həyata keçirən tibb müəssisələrinə immunlaşdırma tədbirlərinin təşkilində metodiki köməkliyin göstərilməsi təmin edilsin.

4. Respublika Gigiyena və Epidemiologiya Mərkəzinin baş direktoru S.Həsənovaya

Elektron Sənəd Dövriyyəsi Sistemi
İmzalayan şəxs: Teymur Musayev / Rəhbərlik / Nazir

**Qeyd:** <<Elektron imza və elektron sənəd haqqında>> Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.

**Sənədin elektron yüklənmə ünvanı:**
https://verify.esd.e-gov.az/info/esign/QkoTrEbd4BSvV1JY67xodvotAU6b7YPGBuxNMLf0mpI%3D

tapşırılsın:

4.1. “İmmunlaşdırma həftəsi” çərçivəsində Ümumdünya Səhiyyə Təşkilatının texniki dəstəyi ilə 2022-ci ilin yekunlarına görə peyvəndlərlə əhatə səviyyəsi xüsusilə aşağı olan Xaçmaz, Göygöl, Hacıqabul, Mingəçevir, Naftalan, Qax, Qəbələ, Qobustan, Şabran, Ucar, Yevlax rayonlarında monitorinqlər keçirilsin;

4.2. “İmmunlaşdırma həftəsi"nin yekun nəticələri haqqında məlumat 29 may 2023-cü il tarixinədək Səhiyyə Nazirliyinə təqdim edilsin.

5. İctimaiyyətlə əlaqələr sektorunun müdiri P.Abubəkirova tapşırılsın ki, “İmmunlaşdırma həftəsi” barədə kütləvi informasiya vasitələrində müvafiq məlumatların yayılması təmin edilsin.

6. Əmrin icrasına nəzarət nazir müavini Nadir Zeynalova həvalə edilsin.

**Nazir** **Teymur Musayev**

Elektron Sənəd Dövriyyəsi Sistemi
İmzalayan şəxs: Teymur Musayev / Rəhbərlik / Nazir

**Qeyd:** <<Elektron imza və elektron sənəd haqqında>> Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.

**Sənədin elektron yüklənmə ünvanı:**
https://verify.esd.e-gov.az/info/esign/QkoTrEbd4BSvV1JY67xodvotAU6b7YPGBuxNMLf0mpI%3D